# Allahın ən üstün bəndəsi Həzrət Mühəmməd (s)

ALLAHIN ƏN ÜSTÜN BƏNDƏSİ HƏZRƏT MÜHƏMMƏD (S) Məlum olduğu kimi uca Rəbbimiz olan Allah öz varlığını və təkliyini biz insanlara bildirmək üçün müxtəlif dövrlərdə peyğəmbərlər göndərmişdir. Bu peyğəmbərlərin içərisində heç şübhəsiz ki, həzrət Mühəmmədin (s) müstəsna bir yeri və xidməti vardır. Mötəbər qaynaqların da verdikləri məlumatlardan belə aydın olur ki, bütün göndərilmiş peyğəmbərlərin hamısı onun müjdəsini öz ümmətlərinə bildirmişlər. Həmçinin bütün səmavi kitablarda Allah onu vəsf etmiş, ondan danışmış və hətta ona iman gətirməyi belə keçmiş peyğəmbərlərə vacib etmişdir. Buradan belə nəticəyə gəlirik ki, bütün peyğəmbərlər və nazil olunmuş bütün səmavi kitablar onun peyğəmbərliyinə şahidlik etmişlər. Yaradılışın məqsədi Allahı bilib tanımaq və ona layiqli bəndə olmaq olan Adəm övladı tarixin bəzi dövrlərində peyğəmbərlərin üstün səyləri və rəhbərliyi sayəsində tövhid əqidəsinə bağlı qalmış, bəzən də zülm və haqsızlığa dalaraq zəlalətə düşmüşdür. Bu kimi vəziyyətlərdə Cənabı Haqq peyğəmbərlərlə insanların köməyinə yetişmişdir. Beləcə, miladi VII əsrdə də dünyanın hər tərəfi zülmlər, qaranlıqlar və pozğunluqlar içində idi. Belə ki, insan ya vəhşi, zalım, mərhəmətsiz və kobud bir məxluq, yaxud əsir, məzlum və zərər çəkmiş bir varlıq idi. Dağdan gətirdiyi odun parçasını yonaraq tanrı əldə edir, öz əliylə yoğurub şəkil verdiyi halvanı büt etdikdən sonra acınca yeyirdi. O zamanın Ərəbistanında hər şey əsl mahiyyətindən uzaqlaşdırılmış, içki qorxunc bir

vərdiş halına gəlmiş, yalançılıq və fırıldaqçılıq hər yerə yayılmış, faiz alıb vermək sərvətləri istismar etmək nöqtəsinə varmış, kobudluq və zülm, uşaqları diri-diri torpağa basdıracaq və kiçik balaları vəhşicəsinə qətl edəcək səviyyəyə çatmışdı. İnsanlıq küfrün bu qaranlıq çağında pislikləri yaxşılığa, fəsadı sülhə çevirəcək, insanların ruhlarında cücərən fəsad toxumlarını söküb ataraq yerinə fəzilət, yaxşılıq və Allah qorxusu yerləşdirəcək bir qurtarıcı gözləyirdi. O, imansızlığın, əxlaqsızlığın, zülmün və cəhalətin insanlığı örtdüyü bir zamanda, bir hidayət məşəli olaraq gəldi. Ondan əvvəlki dövrdə yer üzü zülm və istibdadla dolmuş, insanlar arasında mənəvi dəyərlər itib-batmış, insan ləyaqətini rüsvay edən əməllər baş qaldırmış və nəhayət keçmiş İlahi dinin bütün qaydaqanunları təhrif edilmişdir. Belə bir zamanda keçmiş peyğəmbərlərə göndərilən əqidə prinsiplərini dirildən, dünyaya yeni İlahi qanunlar gətirən bir peyğəmbərə ehtiyac vardı. Hansı ki, göndəriləcək bu peyğəmbər mənəvi çirkab dünyasında qərq olmuş bəşəriyyəti oradan xilas etməli, o insanların bütün həyatları boyu ehtiyac duyacaqları mənəvi nemətləri onlara verməli idi. Həmçinin göndərilən peyğəmbər elə bir şəxs olmalı idi ki, doğulub boya-başa çatdığı bölgədə və oranın insanları yanında doğrucul, əmanətdar, ədalətli və bir sözlə yüksək əxlaqi keyfiyyətlərə malik olsun. Belə bir şəxsiyyət isə Mühəmməd bin Abdullahdır (s) ki, sadaladığımız bütün ali və İlahi keyfiyyətləri öz şəxsində birləşdirmiş, yaşadığı şeytani mühitdə bir an da olsun öz yolundan sapmamışdır. Hələ peyğəmbərlik yükünü götürməmişdən əvvəl öz mühitində böyük əxlaq sahibi kimi tanınmış, ictimai işlərdə fəal iştirak etmiş və hamının yanında “Əmin” ləqəbi ilə məşhur olmuşdur. Bütün bu

deyilənlərdən əlavə onun pak bir sülaləyə mənsub olması da o həzrətin necə bir mənəvi şəxsiyyət olmasına dəlildir. Onun nəsil şəcərəsi bütün xüsusiyyətləri baxımından tanınmış olması ilə yanaşı heç vaxt tövhid dinindən dönməmiş, ata-babları İbrahim peyğəmbərin (ə) müqəddəs hənif dinində olmuşlar. Beləcə, nəsil etibarı ilə peyğəmbərlik məqamı ilə vəzifələndirilmiş bu pak sülalə sonda həzrət Mühəmmədin (s) adı ilə daha da şərəfləndi. O, insanlığın da, peyğəmbərliyin də zirvəsindədir. Özünün də buyurduğu kimi "Allah mənim nurumu ərşin altında Adəmi yaratmamışdan on iki min il əvvəl yaratmış, o nuru Adəmi xəlq etdikdən sonra onun sülbünə daxil etmiş və beləliklə o nur bir sülbdən digər sülbə keçərək Abdullah bin Əbdülmüttəlibin və Əbu Talibin sülbündə ikiyə ayrılmışdır. Allah məni həmin nurdan yaratmış və məndən sonra heç bir peyğəmbər yoxdur." Bu hədisin mənası sonrakı Əhli-beyt imamları (ə) tərəfindən də təsdiqlənib və genişləndirmişdir. Belə ki, bu məqama işarə edən İmam Sadiq (ə) buyurur: "Allah Mühəmmədin (s) nurunu göylər, yerlər, ərş, kürsü, qələm, cənnət, cəhənnəm, həmçinin Adəm, Nuh, İbrahim, İsmail, İshaq, Yaqub, Musa, Davud, Süleyman, İsa və bütün peyğəmbərlərdən əvvəl xəlq etmişdir." Beləcə, Allah peyğəmbərlik qapısını onunla bağlayıb və möhürlədi. Onun doğumu ilə dünya lərzəyə gəldi. O, digər insanların doğulmasından fərqli doğuldu. Belə ki, dünyaya sünnət olunmuş halda, "Allahu əkbər, vəlhəmdu lillahi kəsiran, subhanəllahi bukrətən və əsila" zikri ilə gəldi. Onun doğumu ilə İran kəsralarının eyvanı üçdu, Kəbədəki bütlər üzü üstə yerə gəldilər, Ərəbistan yarımadasında böyük bir nur göründü və nəhayət Fars məcusilərinin atəşgahındakı min

illərdən bəri yanan atəş söndü. Heç bir qələm onu təsvir, heç bir bəyan onu vəsf edə bilməz. Yenə onu ad olaraq daşıdığı mübarək “Mühəmməd” sözü vəsf etməkdədir. Şəxsən Allah onu tərifləmiş və nurdan yaratmışdır. O “həbib” yəni “sevimli” mövqeyindədir. Allah həzrət Mühəmmədin (s) vasitəsilə bilinər və onun təsvir etdiyi yoldan gedilməklə Allaha yetişmək olar. Yəni Allaha gedən yol həzərt Mühəmməddən (s) keçər. Necə ki, Qurani-Kərimdə belə bəyan edilməkdədir: “De ki: Əgər siz Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın...” O, zahirde ümmi idi, oxuma yazma bilməzdi. Həqiqətdə isə isə “Ümmül-Kitab” idi. Elmlər dəryası idi. Onsuz da ona kim müəllimlik edə bilərdi! Kim ona nəyi nə ilə öyrədəcəkdi! Bəli mövcud məxluqun heç biri ona müəllimlikedə bilməzdi. Çünki onun ustadı şəxsən Allah idi. O bütün elmləri əhatə etmişdi, elmlər onu əhatə edə bilməzdi. O, digər peyğəmbərlər kimi bir qövmün, bir millətin deyil, bütünlüklə insanlığın peyğəmbəridir. Dünyaya yol göstərəndir. Onun dünyaya gəlməsindən ta dünyanın sonuna qədər olan zaman “Məhəmmədin dövrü”dür. Mömini də, kafiri də onun sayəsində yaşayır. Bunu bizə Qurani-Kərim anladır: “Sən onların içində olaola Allah onlara əzab verən deyil.” Onu qəbul edənlər müsəlman adlanıb səadətə yetdilər, qəbul etməyənlər, ona sadəcə “Abdullahın oğlu Məhəmməd” gözüylə baxanlar bədbəxt oldular. Onun həyatı ədəb, nəzakət, yaxşılıq, təmizlik, sevgi, şəfqət, mərhəmət, ixlas, səmimiyyət, vəfa, düzgünlük və digər fəzilətlərlə dolu bir həyatdır. Necə ki Allah onu bəşəriyyətə təqdim edərkən: “Şübhəsiz sən böyük əxlaq, böyük səciyyə və böyük fəzilət üzərindəsən.” deyə buyurmaqdadır. Bəli, o aləmlərə rəhmət

olaraq gəldi, sevgi ilə baxdı mərhəmətlə sinə açdı, şəfqət saçdı. İki dünya günəşi həzrət Mühəmməd əl-Mustafanı (s) şəxsən Allah sevmiş, ondan razı olmuş və onu da razı salacağını vədə etmişdir. Züha surəsinin 5-ci ayəsində: “Ey Rəsulum! Şübhəsiz Rəbbin sənə verəcək və sən də razı olacaqsan” deyə buyurmuşdur. Bu da axirətdə ona veriləcək “məqami-mahmud”un, yəni şəfaət mövqeyinin veriləcəyinə işarədir. Bir hədisi şərifdə: “Rəbbim mənə razı oldunmu? buyurana qədər mən şəfaət edəcəyəm” buyurmuşdur. Bundan daha böyük, daha yüksək bir mərtəbə olarmı? Belə bir peyğəmbərə ümmət olmaq nə böyük bir bəxtiyarlıq və nə böyük bir şərəfdir! İnsanoğlu gəlişində gedişində, maddəsində mənasında, ədəbində ərkanında ona uyğun yaşamadıqca ziyan içindədir, fəlakətdədir. Bəşəriyyətin əbədi dinclik və səadətə qovuşması ancaq o böyük insanı hər vaxt və məkanda, hər işdə və hər halda nümunə götürməklə mümkündür. O, bizim hidayətimizin səbəbi, xilaskarımızdır. İslamın həqiqətini, həyatın və ölümün zövqünü bizə o öyrətmişdir. Ürəyimizin tək zinəti onu xatırlamaq olmalıdır. Hər cəmiyyət öz seçmə şəxsiyyətlərini nümunə götürür. Elm, mədəniyyət və ağıl sahibi insanların da edəcəyi budur. Bu insanlar dünya və axirətdə, xoşbəxt və bəxtiyar olarlar. Bu cür bəxtiyar insanlardan məhrum olan cəmiyyətlər əxlaqi tənəzzülə düşərlər, dinclikləri pozular, güc və qüvvətlərini itirərlər. Bu qaçınılmaz bir nəticədir. Yuxarıda da qeyd etdiyimiz kimi dini və əxlaqi həyatımızın ən böyük nümunə şəxsiyyəti, heç şübhə yox ki, sevimli peyğəmbərimiz həzrət Mühəmməddir (s). Aləmlərə rəhmət olaraq göndərilən son peyğəmbər həzrət Mühəmmədin (s) nümunə həyati araşdırıldığında, onun möhtəşəm xüsusiyyətləri açıqca görülür. O,

kimsənin ayıbını yüzünə vurmaz, xoşlanmadığı və səhv gördüyü bir davranış olsa o davranışı edənlərin kim olduğunu ifadə etmədən və kimsənin qəlbini qırmadan səhvləri düzəldər, kimsənin sözünü kəsməz, danışığı bitənə qədər dinləyər, kimsənin gizli hallarını araşdırmaz, onu maraqlandırmayan mövzularla məşğul olmazdı. Allaha hörmətsizlik edilmədikcə, özünə qarşı edilən pislikləri bağışlayar, əlinə fürsət keçsə də intiqam almağı düşünməzdi. Zəngin-kasıb, ağa-kölə, böyük-kiçik ayrı-seçkiliyi etmədən insanları bərabər gözdə görərdi. Peyğəmbər (s) comərd idi. Ehsan etməyi çox sevərdi. Əlinə keçən hər şeyi dərhal möhtaclara paylayar, kimsəni əli boş qaytarmazdı. Bütün işlərini tam bir nizam və intizam içində edər, vaxtını boşa keçirməzdi. Dürüstlükdən ayrılmazdı. Verdiyi sözə əməl edərdi. Zarafatla da olsa, əsla yalan danışmazdı. Hələ peyğəmbər olmadan “Əmanətdar adam” ünvanını da beləcə qazanmışdı. Bunun üçündür ki, Uca Allah Qurani-Kərimdə: “Sizin üçün Allahın Rəsulu Allaha və axirət gününə qovuşmağı ümid edənlər və Allahı çox zikr edənlər üçün, gözəl bir nümunədir” deyə buyurur. Bununla yanaşı: Allah taala Quranda Peyğəmbərimizin (s) “Ən üstün əxlaq üzrə olduğunu”, Allahın rəhmətinin əsəri olaraq ümmətinə yumşaq və mərhəmətlə davrandığını bildirmiş və “Ey Məhəmməd! Biz şəni ancaq aləmlərə rəhmət olaraq göndərdik” deyə buyurmuşdur. Peyğəmbərimiz (s) də: “Sizin ən xeyirliniz, əxlaqca ən gözəl olanınızdır.” “Mən ancaq gözəl əxlaqı tamamlamaq üçün göndərildim” deyə buyurmuşdur. Hörmətli müsəlmanlar! Önümüzdəki həftələrdə sevimli Peyğəmbərimizin (s) mövlududur. Bu mərasimi qeyd edərkən müsəlmana

yaraşan yalnız onun yüksək əxlaqını mənimsəmək, ailəsinə, ətrafına, millətinə və dövlətinə faydalı bir insan olmaqdır.

Hacı Fuad Nurullayev QMİ-in sədr müavini